# Gəncədə bəstəkar Qəmbər Hüseynlinin xatirəsi anılıb

**Gəncədə şəhər icra hakimiyyətinin dəstəyi, Gəncə-Daşkəsən Regional Mədəniyyət və Təhsil idarələrinin birgə təşkilatçılığı ilə bəstəkar Qəmbər Hüseynlinin doğum gününə həsr olunmuş tədbir keçirilib.**




Bəstəkarın ailə üzvləri və şəhər ziyalılarının iştirak etdikləri tədbir bəstəkarın məzarüstü abidəsini ziyarətlə başlayıb. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında davam edən tədbirdə dahi bəstəkarın həyat və yaradıcılığından danışılıb. Bildirilib ki, 1916-cı il aprelin 16-da Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində anadan olan bəstəkarın "Cücələrim" mahnısı dünyanın 148 xalqının dilində səslənib. Sənətşünasların yekdil rəyinə görə, indiyəcən "Cücələrim" kimi öz müəllifini bütün dünyada tanıtdıran ikinci mahnı olmayıb.

Rəsmi hissədən sonra Gəncə şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbinin gənc müəllimlərindən ibarət "Zirvə" ansamblı və xor kollektivinin təqdimatında Qəmbər Hüseynlinin ölməz əsərləri ifa edilib. Gəncə şəhər 13 saylı uşaq bağçasının "Cücələrim" rəqs qrupunun çıxışı isə tamaşaçılar tərəfindən xüsusi maraqla qarşılanıb.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***


Azərbaycan.- 2025.- 18 aprel (№77).- S.9.